# Vahid elektron informasiya sistemi vətəndaşların müraciətlərinə operativ baxılmasını və nəzarəti təmin edəcəkdir

Azərbaycan sosial-iqtisadi həyatın bütün sahələrində hərtərəfli və müasir dinamik inkişaf yolundadır. Düşünülmüş siyasətlə siyasi və iqtisadi islahatların bir-birini tamamlaması nəticəsində son on il ərzində iqtisadiyyat və sənaye üç dəfədən çox artmışdır. Beləliklə, Azərbaycanda iqtisadi inkişaf dünyada ən sürətli və yüksək templi olmuşdur. Aydındır ki, xalqın dəstəyi olmadan dövlət həqiqi mənada intibah olan bu innovativ dinamik inkişafa nail ola bilməzdi. Azərbaycan Respublikasının Prezidenti görülən işlərə xalqın verdiyi dəstək barədə demişdir: "Son 10 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır və bu, rekord göstəricidir, analoqu olmayan inkişafdır. Bizim daxili vəziyyətimiz çox sabitdir. Sabitliyi qoruyan əsas şərtlər xalqla iqtidar arasında birlikdir, xalqın görülən işlərə dəstəyidir, inamıdır".

Konstitusiyamızda hakimiyyətin xalqa məxsus olduğu təsbit olunmuşdur. Dövlət başçısı bu birliyi sıxlaşdırmaq, xalqın idarəetmədə iştirakını daha da aktivləşdirmək üçün davamlı surətdə müvafiq tədbirlər görür. Vətəndaşların rəyləri, təklifləri, onların gündəlik problemlərinin öyrənilməsi və həll olunması bu istiqamətdə mühüm əhəmiyyətə malikdir. Bu sahədə işi təkmilləşdirmək dövlətimizin başçısının daim diqqət mərkəzindədir. 2015-ci il aprelin 29-da Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" fərman və həmin fərmanla təsdiq edilmiş Qaydalar bu diqqətin bariz təsdiqidir. Müasir dövrümüz sürətli elmi-texniki inkişaf dövrüdür. Bu baxımdan Vətəndaş müraciətlərinin vahid elektron informasiya sistemində toplanması, təhlili, sistemləşdirilməsi və həlli mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Elektron Hökumət Bülleteni"ndə Azərbaycan Respublikası Prezidentinin "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" fərmanı və fərmanla təsdiq edilmiş Qaydalarla bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun müsahibəsi verilmişdir. Dövlət rəsmisi fərmanın verilməsi səbəbini, əhəmiyyətini, Qaydalar əsasında iş prinsipini ətraflı şərh etmişdir.

Məsələ ondadır, bu gün dünya informasiya ilə idarə olunur. İnformasiya-kommunikasiya texnologiyaların çox sürətli inkişafı dövründə dövlətin idarə edilməsində informasiyanın qəbulu, analizi, qabaqlayıcı tədbirlərlə ictimaiyyətə çatdırılması artıq çox mühüm məsələyə çevrilib. Ölkələrin sosial-iqtisadi inkişafında, idarə edilməsində vətəndaş rəyləri, təklifləri, problemləri və həlli dövlət əhəmiyyəti səviyyəsindədir. Müasir şəraitdə onların toplanması İKT-siz mümkün deyil. Bundan başqa, ölkəmizdə əhalinin 70 faizi internet istifadəçisidir. Beləliklə, ölkəmiz dünyanın ən geniş informasiya məkanına inteqrasiya edib. Bu o deməkdir ki, belə şəraitdə cəmiyyətdə vəhdətə nail olmaq dövlət idarəetməsində onların fəal iştirakını təşkil etmək üçün elektron informasiya sistemi həlledici əhəmiyyət kəsb edir.

İKT-nin inkişafı üzrə 10 illik Milli Strategiya ulu öndər Heydər Əliyevin imzaladığı fərmanla reallaşmağa başlamışdır və ümummilli liderimizin siyasi varisi, dövlət başçısı İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. 2008-ci ildə Azərbaycan peykinin orbitə çıxarılması barədə qərar verilmiş, 2009-cu ildə bu sahəyə dair Dövlət Proqramı qəbul edilmiş, bir il sonra isə "Azərkosmos" Səhmdar Cəmiyyəti yaradılmış və ölkəmiz kosmik klubun üzvünə çevrilmişdir. Hazırda ölkəmiz iki kosmik peykə malikdir. Beləliklə, dövlətimiz kosmik sənayesi olan ölkələr sırasına daxil olmuşdur. Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin İKT sahəsində əldə etdiyi uğurlara yüksək qiymət vermişdir: "İKT sahəsində Azərbaycan, doğrudan da, son illər ərzində böyük uğurlar əldə edibdir. Bu, həm biznes, həm zəka, intellekt sahəsidir. Eyni zamanda, innovasiya və şəffaflığa təkan verən, xidmət göstərən bir sahədir. Biz bu imkanlardan geniş istifadə etməliyik". Göründüyü kimi, İKT-nin inkişafı iqtisadi sahələrin bütün sahələrində operativ informasiya mübadiləsini təmin edir, cəmiyyətlə iqtisadi, siyasi və sosial qurumlar arasında qarşılıqlı müasir tələbə cavab verən informatik körpü yaradır, dövlətin müvafiq institutları ilə vətəndaş arasında operativ əlaqə yaratmaqla korrupsiya və rüşvətxorluğa da yer qoymur. Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının çox sürətli inkişafı imkan verib ki, dövlət elektron hökumət yaratsın, informasiya cəmiyyəti vasitəsilə idarəetmədə təkmilləşdirməni təmin etsin. Süleyman İsmayılov bildirib ki, Azərbaycan vətəndaşları dövlətimizin başçısının qayğı və diqqətini həmişə hiss edir və bunun real nəticələrini öz gündəlik həyatlarında görürlər. Bu, bir həqiqətdir ki, vətəndaşlara qayğı göstərilməsi, onların müraciətlərinə baxılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət yetirdiyi prioritet məsələlərdən biri olub və bu gün də prioritet olaraq qalır. Mətbuatdan bildiyiniz kimi, son illərdə dövlət qurumlarında bu işlərə diqqət daha da artırılıb. Vətəndaşların müraciətlərini dərindən öyrənmək, qaldırılan problemləri operativ həll etmək üçün müasir informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə olunur. Artıq bir çox dövlət qurumlarında videoqəbulların keçirilməsi, mərkəzləşdirilmiş çağrı və sorğu mərkəzlərinin tətbiqi adi hal alıb. Yeni yaradılan vahid elektron informasiya sisteminə gəldikdə isə qeyd etməliyik ki, hələ 2008-ci ildə dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində vətəndaşların müraciətlərinə baxılması işini təkmilləşdirmək məqsədilə müasir elektron informasiya sistemi yaradılıb. Belə bir sistemin şəhər və rayon icra hakimiyyətlərində də tətbiqi Prezident tərəfindən zəruri hesab edilib və müvafiq fərman imzalanıb.

Prezidentin fərmanına və təsdiq edilmiş Qaydalara əsasən informasiya sisteminin təsisçi-administratoru Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, operatoru Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və məsul şəxsləri isə yerli icra hakimiyyətinin başçılarıdır. Fərmanda sistemin təsisçi-administratoru, operatoru və məsul şəxslərinin əsas vəzifələri konkret göstərilib. Sistemin necə işləməli olduğu isə Qaydalarda göstərilib, onun məxfi sənədlərə şamil olunmadığı, digər kargüzarlıq işlərindən ayrı aparıldığı, vətəndaş müraciətlərinin qeydiyyatdan keçirilməsinə, onlara dair təhlillərin, statistik məlumatların və digər hesabatların əldə olunmasına imkan verdiyi konkret müddəalarda ifadə edilib.

Qaydalarla tanış olduqda bir mərkəzdən idarə və nəzarətin şahidi oluruq. Yəni yerlərdə informasiyalar yerli icra hakimiyyəti orqanlarında toplanacaq, oradan operator - Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinə ötürüləcək, təsisçi-administrator - Azərbaycan Respublikası Prezidentinin Administrasiyası isə informasiya sisteminin fəaliyyətinə, düzgün istismarına, təkmilləşdirilməsinə və digər məsələlərə nəzarət edəcəkdir. Beləliklə, bütün respublikanı əhatə edə biləcək elektron informasiya sistemi şəbəkəsi fəaliyyət göstərəcəkdir. Göründüyü kimi, vahid elektron informasiya sistemi vətəndaşların müraciətlərinə operativ baxılmasını və nəzarəti təmin edəcəkdir.

Süleyman İsmayılov vurğulayıb ki, bu fərmanla elə bir mükəmməl sistem yaradılır ki, ondan eyni vaxtda çoxsaylı vətəndaşların istifadə etməsinin mümkünlüyü ilə yanaşı, bir-biri ilə uzlaşa bilən texnologiyalar, formatlar, protokollar və proqram-texniki vasitələr tətbiq edilir, informasiya sisteminə daxil edilən məlumatların dəqiqliyi, tamlığı, etibarlılığı, eyni zamanda, informasiya təhlükəsizliyi təmin olunur. Vahid elektron informasiya sistemi yerli icra hakimiyyəti orqanlarına bilavasitə vətəndaşlardan və ya onların müraciətlərinə baxan subyektlərdən daxil olan təklif, ərizə və şikayətlərin operativ qeydə alınmasını, icrasını və arxivləşməsini təmin edən elektron məlumat bazasından və proqram-texniki vasitələrin məcmusundan ibarətdir. Tətbiq olunan yeni sistem təsisçi-administratora imkan verir ki, respublikanın bütün şəhər və rayonlarında vətəndaşların müraciətlərinə, ərizə və şikayətlərinə baxılmasını, həmçinin respublika üzrə sistemə daxil edilən bütün məlumatları mərkəzi server vasitəsilə müşahidə etsin. Hətta müraciətlər barədə məlumatların Prezident Administrasiyasına elektron formada göndərilməsi də bu sistem vasitəsilə təmin ediləcək. Əgər müraciətlərin daxil olduğu andan onların icrası başa çatanadək bütün prosesləri müşahidə etmək mümkündürsə, onda gecikmələrin, yaxud müraciətə vaxtında və düzgün baxılmamasının qarşısı daha tez alına bilər.

Hər bir dövlətin idarəolunmasında vətəndaş müraciətlərinin operativ qəbulu, təhlili, zamanında cavab verilməsi mühüm əhəmiyyətə malikdir. Dövlət rəhbərliyi bu istiqamətdə daim səmərəli addımlar atır. Aydındır ki, sənədləşmə işinin mükəmməlliyi idarəolunmada mühüm şərtlərdən biridir. Müasir şəraitdə ən müasir texnologiyalardan və innovasiyalardan istifadə edilməklə bu istiqamətdə yüksək səviyyəli inkişafa nail olmaq imkan daxilindədir.

"Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" fərman və fərmanla təsdiq edilmiş Qaydalarla tanış olarkən aydın olur ki, idarələrarası sənəd dövriyyəsi də bu fərman və Qaydaların tələbinə müvafiq təkmilləşəcəkdir. Süleyman İsmayılov müsahibənin sonunda qeyd edib ki, bütün bunlar müasir dövrün tələblərinə uyğun olaraq Azərbaycan dövlətinin daha yüksək tərəqqisi, inkişafının təmin olunması, müxtəlif sahələrdə, o cümlədən sənədləşmə işində ən müasir texnologiyalardan və innovasiyalardan istifadə edilməsi, bununla əlaqədar qəbul edilmiş proqramların həyata keçirilməsi məqsədi daşıyır və hər bir dövlət qulluqçusu, hər bir məmur müasir elektron sənəd dövriyyəsinin əsaslarını öyrənməli və gündəlik işlərində geniş tətbiq etməlidir.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**